“Kim bizim yolumuza zidd , ona aid olmayan bir yenilik gətirərsə, o rədd olunar

Aişə (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğunu rəvayət edir: “Kim bizim yolumuza zidd , ona aid olmayan bir yenilik gətirərsə, o rədd olunar” (Buxari və Muslim). Müslimin rəvayətinə görə: “Kim bizim əmrimizə (şəriətimizə) uyğun olmayan bir əməl edərsə, o rədd olunar”.
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, kim dinə yenilik gətirərsə, yaxud Quran və sünnədə təsdiqini tapmayan bir əməli edərsə, həmin əməl sadəcə özü üçün etdiyi faydasız bir əməl olar və Allah tərəfindən qəbul olunmaz.

https://sunnah.global/hadeeth/az/show/4792

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee